AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə: 24-37
https://doi.org/10.59849/2664-5432.2026.2.24

İlham TAHİROV*

SABİR RÜSTƏMXANLI İDİOLEKTİNDƏ MİLLİ-MƏDƏNİ KONSEPTLƏRİN SEMANTİK TƏŞKİLİ

XÜLASƏ

Məqalədə Sabir Rüstəmxanlının idiolektində milli-mədəni məzmunun formalaşmasında mühüm rol oynayan *vətən, yurd, torpaq, dil, xalq* və *yaddaş* konseptləri korpus-linqvistik və leksik-semantik yanaşmalar əsasında araşdırılır. Tədqiqatın məqsədi həmin konseptlərin müəllif mətnlərindəki əsas semantik xüsusiyyətlərini, kontekstual funksiyalarını və qarşılıqlı əlaqələrini müəyyənləşdirməkdir. Tədqiqat materialını yazıçının 15 cildlik əsərləri üzrə hazırlanmış konkordans və müəllif dilinin tezlik lüğətinin göstəriciləri təşkil edir. Tezlik məlumatlarından seçilmiş sözlərin işlənmə intensivliyini müəyyənləşdirmək, konkordans nümunələrindən isə onların məna çalarlarını, obrazlı işlənmələrini və digər konseptlərlə əlaqələrini təhlil etmək üçün istifadə olunur. Təhlildə sözün bütün işlənmələri deyil, milli-mədəni məzmunu kontekst daxilində üzə çıxan nümunələr əsas götürülür, birbaşa ifadə olunan semantik münasibətlərlə interpretasiya əsasında müəyyənləşdirilən əlaqələr fərqləndirilir. Araşdırma nəticəsində *vətən* konseptinin milli-mənəvi bütövlük və mənsubiyyət, *yurd* konseptinin doğma məkan, *torpaq* konseptinin maddi əsas və tarixi iz, *dil* konseptinin milli kimlik və mənəvi varislik, *xalq* konseptinin kollektiv kimlik və mədəni varislik, *yaddaş* konseptinin isə keçmiş təcrübənin qorunması və aktuallaşması ilə bağlı semantik nüvələri müəyyənləşdirilir. Konseptlərarası münasibətlər milli kimlik və varislik, məkan və mənsubiyyət, tarixi təcrübə və yaddaş, maddi və mənəvi əsaslar olmaqla ümumiləşdirilir və semantik model şəklində təqdim olunur. Nəticə etibarilə, müəllifin milli-mədəni məna sisteminin ayrı-ayrı sözlərin təcrid olunmuş mənaları ilə deyil, onların kontekstual və qarşılıqlı semantik əlaqələri ilə formalaşdığı göstərilir. Tədqiqatın nəticələri seçilmiş konkordans nümunələrinin keyfiyyət təhlilinə əsaslanır.

Açar sözlər: *Sabir Rüstəmxanlı, idiolekt, milli-mədəni konsept, korpus dilçiliyi, konkordans, semantik əlaqə.*

Müəllif mətnlərinin dil xüsusiyyətlərinin öyrənilməsi yalnız işlədilən sözlərin müəyyənləşdirilməsi və onların tezliyinin hesablanması ilə məhdudlaşmır. Mətnlərdə sözlərin hansı kontekstlərdə işlənməsi, hansı məna çalarları qazanması, başqa leksik vahidlərlə necə əlaqələnməsi və müəllifin fərdi ifadə tərzində hansı funksiyaları yerinə yetirməsi də mühüm tədqiqat məsələlərindəndir. Bu baxımdan

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Nəzəri dilçilik şöbəsinin müdiri, professor.
Email: ilham_tahir@rambler.ru

idiolekt anlayışı yazıçının dil istifadəsində müşahidə olunan fərdi xüsusiyyətlərin, təkrarlanan leksik-semantik seçimlərin və mətnyaratma vərdişlərinin öyrənilməsi üçün əlverişli nəzəri çərçivə yaradır.

Sabir Rüstəmxanlının yaradıcılığında milli kimlik, tarixi keçmiş, ana dili, doğma məkan və kollektiv yaddaş məsələləri mühüm məna istiqamətləri kimi meydana çıxır. Bu məzmunun dil səviyyəsində araşdırılması üçün *vətən, yurd, torpaq, dil, xalq* və *yaddaş* sözlərinin işlənmə xüsusiyyətlərinin, kontekstual mənalarının və qarşılıqlı semantik münasibətlərinin öyrənilməsi xüsusi əhəmiyyət daşıyır.

Bu tədqiqatda Sabir Rüstəmxanlının idiolektində milli-mədəni konseptlərin leksik-semantik xüsusiyyətlərini, kontekstual funksiyalarını və konseptlərarası əlaqələrini korpus materialları əsasında müəyyənləşdirilir. Bu məqsədlə *vətən, yurd, torpaq, dil, xalq* və *yaddaş* sözlərinin tezlik göstəriciləri və konkordans nümunələri əsasında onların mətnlərdəki əsas məna istiqamətləri, poetik və publisistik-fəlsəfi kontekstlərdə qazandıqları məcazi və simvolik çalarlar araşdırılır. Eyni zamanda həmin konseptlər arasında yaranan semantik əlaqələr və onların müəllifin milli-mədəni məna sisteminin formalaşmasındakı rolu təhlil olunur.

Tədqiqatın materialını Sabir Rüstəmxanlının 15-cildlik əsərləri üzrə hazırlanmış konkordans və müəllif dilinin tezlik lüğətinin müvafiq göstəriciləri təşkil edir (Rüstəmxanlı, 2025; Tahirov, 2026). Tezlik göstəricilərindən seçilmiş sözlərin kəmiyyət xarakteristikasının müəyyənləşdirilməsi, konkordans materiallarından isə onların kontekstual və semantik xüsusiyyətlərinin araşdırılması məqsədilə istifadə olunur.

İdiolektin və milli-mədəni konseptlərin tədqiqinə nəzəri-metodoloji yanaşma. İdiolekt anlayışı fərdi dil özünəməxsusluğunu müəyyənləşdirməyə imkan verir. İdiolekt fərdin nitqinə xas olan formal və üslubi xüsusiyyətlərin məcmusu kimi səciyyələndirilir (Виноградов, 2008, s. 702). Bununla belə, idiolekt yalnız müəllifin tez-tez işlətdiyi sözlərin siyahısı kimi başa düşülməməlidir. Fərdi dil xüsusiyyətləri leksik seçim, məna çalarları, ifadə modelləri və mətn daxilində sözlər arasında yaranan əlaqələr vasitəsilə də üzə çıxır. Azərbaycan dilçiliyində leksik vahidlərin üslubi imkanları və məna çalarları T.Əfəndiyevanın tədqiqatlarında da nəzərdən keçirilmişdir (Əfəndiyeva, 1980; Əfəndiyeva, 2001). Müasir korpus-linqvistik yanaşma isə müəllifin fərdi dil və üslub xüsusiyyətlərini mətn materialı əsasında sistemli şəkildə araşdırmağa, leksik vahidlərin işlənmə tezliyini və onların semantik xüsusiyyətlərini müəyyənləşdirməyə imkan verir (Баранов, Добровольский, 2022, s. 20-21).

Milli-mədəni konseptlərin araşdırılması dil, düşüncə və mədəniyyət arasındakı münasibətlərin nəzərə alınmasını tələb edir. Koqnitiv dilçilikdə konseptual çərçivələr və idealizə edilmiş koqnitiv modellər dil vahidlərinin daha geniş bilik və təcrübə strukturları ilə əlaqəsini izah etmək üçün istifadə olunur (Cienki, 2007, s. 170-187). Konseptual metafora nəzəriyyəsi bir sahəyə aid təcrübənin başqa bir sahə vasitəsilə dərk və ifadə olunmasını, metonimiya isə eyni

konseptual sahə daxilində bir elementin digərini təmsil etməsini izah edir (Grady, 2007, s. 188-213; Panther, Thornburg, 2007, s. 236-263). Mədəni dilçilikdə isə dil və mədəniyyət əlaqəsi mədəni kateqoriyalar, konseptuallaşdırmalar və mədəni açar sözlər vasitəsilə öyrənilir (Polzenhagen və b., 2024).

Bu tədqiqatda milli-mədəni konsept dedikdə xalqın tarixi təcrübəsini, kollektiv yaddaşını, milli kimliyini və mədəni dəyərlərini əks etdirən, dil vasitəsilə ifadə olunan və kontekst daxilində müxtəlif məna çalarları qazanan konseptual məzmun vahidi nəzərdə tutulur. Milli-mədəni konseptlər ayrı-ayrı sözlərin lüğəvi mənaları ilə məhdudlaşmır, müəllifin fərdi dil təcrübəsində formalaşan obrazlı, assosiativ və semantik əlaqələri də əhatə edir.

Konseptin məzmununu onu ifadə edən konkret sözün lüğəvi mənası ilə eyniləşdirmək olmaz. Eyni söz müxtəlif kontekstlərdə fərqli mənalar daşıya, bir konsept isə bir neçə leksik vahid və obraz vasitəsilə ifadə oluna bilər. Məsələn, *torpaq* sözü bir kontekstdə əkinə yararlı fiziki səthi, başqa kontekstdə dəfn yerini, digər kontekstdə isə vətənin maddi əsasını ifadə edə bilər. Bu işlənmələrin hamısını eyni milli-mədəni konseptin təzahürü kimi qiymətləndirmək olmaz.

Eyni şəkildə, *dil* sözünün hər işlənməsi milli dil konseptinə aid deyil. “Dil tapmaq”, “dil açmaq”, “dil uzatmaq” kimi ifadələrdə söz frazeoloji və ya məcazi məna daşıyır. Bu prinsip leksik vahidlərin yalnız lüğəvi mənalarının deyil, kontekstdə qazandıqları üslubi və semantik funksiyaların da nəzərə alınmasını təmin edir.

Məqalədə tezlik lüğətinin göstəriciləri və konkordans materialları bir-birini tamamlayan, lakin fərqli suallara cavab verən mənbələr kimi qəbul olunur. Tezlik lüğəti müəyyən sözün müəllif korpusunda işlənmə intensivliyini göstərir, konkordans isə həmin sözün mətn daxilindəki semantik mühitini və digər dil vahidləri ilə əlaqələrini araşdırmağa imkan verir. Tezlik göstəricisi öz-özlüyündə konseptin ideoloji və ya estetik əhəmiyyətini sübut etmir, nəticənin kontekstual təhlillə əsaslandırılmalı olduğunu nəzərə alır.

Tezlik lüğətində tədqiq olunan sözlər üzrə qeydə alınmış göstəricilər belədir: *dil* – 10 311, *xalq* – 7 295, *torpaq* – 4 194, *vətən* – 2 907, *yurd* – 2 172, *yaddaş* – 727 (Tahirov, 2026). Korpusun tərkibinə poeziya, nəsr, publisistika, ədəbi-tənqidi və elmi-fəlsəfi mətnlər daxil olduğundan, bu göstəricilər yalnız bir janrın dil xüsusiyyətlərini əks etdirmir.

Konkordans materiallarının təhlilində seçilmiş sözlərin bütün uyğunluqları deyil, onların milli-mədəni məzmununun kontekst daxilində üzə çıxdığı işlənmələr əsas götürülmüşdür. Nümunələrin seçilməsi zamanı sözün leksik mənası, frazeoloji və məcazi mənada işlənməsi, simvolik çalarları, eləcə də milli kimlik, tarixi təcrübə, mədəni varislik və doğma məkan anlayışları ilə semantik əlaqəsi nəzərə alınmışdır. Məsələn, dil sözünün frazeoloji tərkibdə işlənməsi ilə ana dilini milli kimliyin ifadəsi kimi təqdim edən kontekstlər, torpaq sözünün fiziki və təsərrüfat mənası ilə onun tarixi yaddaşın daşıyıcısı kimi obrazlaşdırılması fərqləndirilmişdir.

Təhlilə daxil edilən nümunələr əsasında hər bir konseptin əsas semantik nüvəsi və digər konseptlərlə əlaqələri müəyyənləşdirilmişdir.

Milli-mədəni konseptlərin leksik-semantik xüsusiyyətləri. Seçilmiş konkordans materiallarının təhlili göstərir ki, *vətən, yurd, torpaq, dil, xalq* və *yaddaş* sözləri müəllifin mətnlərində müxtəlif məna istiqamətlərində işlənir. Onların milli-mədəni məzmunu yalnız lüğəvi mənaları ilə deyil, kontekst daxilində qazandıqları əlavə məna çalarları və başqa konseptlərlə yaratdıqları əlaqələr vasitəsilə formalaşır. Bununla belə, hər bir sözün bütün işlənmələrini milli-mədəni konseptin təzahürü kimi qəbul etmək olmaz. Təhlildə məhz milli mənsubiyyət, tarixi təcrübə, mədəni varislik və doğma məkanla əlaqəsi kontekstdə əsaslandırılan nümunələr ön plana çəkilir.

"Vətən": milli-mənəvi bütövlük və mənsubiyyət. Sabir Rüstəmxanlının mətnlərində vətən konsepti yalnız coğrafi ərazi mənası ilə məhdudlaşmır, dil, torpaq, xalq, vətəndaşlıq və kollektiv məsuliyyət anlayışları ilə əlaqələnərək daha geniş məna tutumu qazanır. Bu əlaqələrin ən aydın ifadələrindən biri "Vətən sözünün maddi ayağı torpaq, mənəvi ayağı dildir" fikridir (Rüstəmxanlı, 2025, VI c., s. 502). Burada vətənin maddi və mənəvi tərəfləri fərqləndirilir: torpaq ərazi əsasını, dil isə milli-mədəni davamlılığı ifadə edir. Beləliklə, vətən fiziki məkanla mənəvi mənsubiyyətin, milli kimlik və kollektiv məsuliyyətin vəhdəti kimi təqdim olunur.

"Vətən güvənliyin olduğu yerdir" ifadəsi (Rüstəmxanlı, 2025, VI c., s. 516) bu konseptin başqa bir tərəfini ön plana çıxarır: güvən və mənəvi dayaq. Sözügedən nümunədə *vətən* müəyyən coğrafi ərazinin adı olmaqdan əlavə, insanın özünü güvəndə hiss etməsi ilə əlaqələndirilir. Burada "güvən" və "vətən" arasında yaranan məna əlaqəsi sözün emosional və dəyəryönümlü məzmununu üzə çıxarır.

"Beləcə bir səsə söykənir vətən,
Arxayın-arxayın ölməzliyinə.
Beləcə bir səsdən asılır Vətən
Yanır başım üstə günəştək yenə!..." (Rüstəmxanlı, 2025, VI cild, s. 163) – misralarında isə vətənin mənəvi varlığı və insanın onunla bağlılığı "səs" obrazı vasitəsilə ifadə olunur. Səsin ana dili, poetik söz və ya başqa məna daşıyıcısı kimi şərh edilməsi bütöv şeirin kontekstindən asılıdır. Buna görə həmin nümunə *vətən* konseptinin obrazlı təqdimatını göstərir, lakin onu yalnız *dil* konseptinin ifadəsi kimi məhdudlaşdırmaq olmaz.

"Vətən ibarətdir vətəndaşlardan!" – ifadəsi (Rüstəmxanlı, 2025, XIII c., s. 429) isə vətənlə kollektiv subyekt arasında birbaşa əlaqə yaradır. Burada vətən yalnız ərazi və simvol kimi deyil, onu təşkil edən insanların birliyi ilə bağlı anlayış kimi təqdim olunur. Beləliklə, seçilmiş nümunələrdə *vətən* konseptinin üç əsas semantik istiqaməti fərqlənir: maddi-mənəvi bütövlük, güvən və mənsubiyyət, vətəndaşlıq və kollektiv birlik. Bu istiqamətlər bir-birindən təcrid olunmur, müxtəlif kontekstlərdə bir-birini tamamlayır.

"Yurd": doğma məkan, bağlılıq və xatirə. Yurd konsepti vətənlə yaxın semantik münasibətdə olsa da, bəzi kontekstlərdə doğma məkanın konkret həyat təcrübəsi ilə əlaqəsini daha qabarıq ifadə edir. "Bu yurd mənə tanış gəlir" mətnində (Rüstəmxanlı, 2025, II c., s. 273-274) yurd "dirəkdəki yəhəri", "axşamı", "səhəri" və "uşaqların səsləri" kimi detallar vasitəsilə təsvir edilir. Məkanın tanınması burada coğrafi biliklə deyil, gündəlik həyatın yadda qalan əlamətləri ilə əlaqələndirilir. Bu detallar yurdun insan təcrübəsində emosional məna qazandığını göstərir.

"Torpağım – ocaq yeri, yurd yeri, Vətən…" – ifadəsində (Rüstəmxanlı, 2025, I c., s. 74) isə torpaq, ocaq, yurd və vətən eyni semantik mühitdə birləşdirilir. Bu sıralanma həmin sözlərin yaxınlığını göstərsə də, onların tam sinonim olduğunu sübut etmir. Kontekstdə *ocaq* yaşayış və ailə mühitini, *yurd* doğma məkanı, *vətən* isə daha geniş mənsubiyyət çərçivəsini aktuallaşdıra bilər. Bu fərq sözlərin dəyişməz məna sərhədi kimi deyil, konkret işlənmədə yaranan semantik vurğu kimi qəbul edilə bilər.

Müəllif *yurd* sözünün həm "alaçıq, çadır, yaşayış yeri", həm də "vətən" mənasında işlənə bildiyini qeyd edir (Rüstəmxanlı, 2025, XIV c., s. 58). Bu şərh sözün semantik diapazonunun konkret məkanla milli mənsubiyyət arasında genişləndiyini göstərir. Yer-yurd adlarının, toponimiyanın, etimologiyanın və arxeologiyanın keçmiş haqqında məlumat mənbələri kimi təqdim olunması da yurd konseptini tarixi biliklə əlaqələndirir (Rüstəmxanlı, 2025, XIV c., s. 66).

Beləliklə, seçilmiş kontekstlərdə *yurd* konseptinin əsas semantik nüvəsini "doğma məkan və ona bağlılıq" təşkil edir. Tarixi yaddaş və milli mənsubiyyət bu nüvəni genişləndirən məna istiqamətləridir. Vətənlə müqayisədə yurd bəzi mətnlərdə daha konkret, yaşanmış və xatirələrlə mənalanmış məkan kimi çıxış edir.

"Torpaq": maddi əsas, tarixi iz və obrazlı məna. Torpaq sözünün təhlili birbaşa leksik məna ilə milli-mədəni məna arasında fərq qoyulmasını tələb edir. Əkin, məhsuldarlıq və coğrafi ərazi ilə bağlı işlənmələrdə söz öz konkret mənasını saxlayır. Başqa kontekstlərdə isə torpaq milli mənsubiyyət, tarixi təcrübə və keçmişin izləri ilə əlaqələndirilir.

"Torpağa baxıram üzümə gülür,

Nəyi bilmirəmsə, bu torpaq bilir" (Rüstəmxanlı, 2025, III c., s. 134) – misralarında torpaq şəxsləndirilir və bilik daşıyıcısı kimi təqdim edilir. "Torpağın bilməsi" ifadəsi onun fiziki xüsusiyyətini deyil, keçmişin izlərini özündə saxlayan məkan kimi obrazlaşdırılmasını ön plana çıxarır. Bu nümunə torpağın yaddaşla əlaqələndirilməsinə imkan verir, lakin belə şərh birbaşa leksik mənadan deyil, poetik obrazın interpretasiyasından irəli gəlir.

"Ümid pöhrələri göyərdir bu yaz,

Dirçəlib hirsindən boğulan torpaq!" (Rüstəmxanlı, 2025, III c., s. 57) – misralarında "dirçəlmək" və "boğulmaq" feilləri torpağa canlı varlığın xüsusiyyətlərini aid edir. Nəticədə torpaq obrazı təbiət təsviri ilə məhdudlaşmır, emosional gərginliyin ifadəsinə də çevrilir. Burada əsas semantik vasitə torpağın

şəxsləndirilməsidir, onun milli-mədəni məzmunu isə yalnız şeirin ümumi konteksti nəzərə alınmaqla müəyyənləşdirilə bilər.

Torpağın maddi əsas kimi mənası "Vətən sözünün maddi ayağı torpaq, mənəvi ayağı dildir" ifadəsində (Rüstəmxanlı, 2025, XIV c., s. 58) daha açıq görünür. Bu kontekstdə *torpaq* vətənin ərazi əsasını təşkil edir, dil isə onun mənəvi tərəfi ilə əlaqələndirilir. Torpağın qatlarında qorunan tarixi izlərin kitab səhifələrində qorunanlardan daha çox olması haqqında fikir torpağı arxeoloji məlumatın daşıyıcısı kimi təqdim edir. Beləliklə, *torpaq* həm fiziki məkan, həm milli mənsubiyyətin maddi əsası, həm də keçmişin izlərini saxlayan məkan kimi müxtəlif funksiyalar qazanır.

"Dost əlləri üstümə bir ovuc torpaq atar" (Rüstəmxanlı, 2025, XV c., s. 194) – misrasında isə torpaq dəfn və ölüm motivi ilə əlaqələndirilir. Bu nümunə sözün semantik diapazonunu göstərir, lakin onu avtomatik olaraq milli-mədəni konseptin əsas təzahürü hesab etmək olmaz.

Nəticə etibarilə, *torpaq* konseptində "maddi məkan" əsas məna istiqamətidir, milli mənsubiyyət, tarixi iz və obrazlı məna isə kontekstdən asılı olaraq həmin əsasla əlaqələnir. Torpağın vətən və yaddaşla münasibəti məhz bu kontekstual keçidlər vasitəsilə yaranır.

"Dil": milli kimlik və mənəvi varislik. Tezlik lüğətində *dil* sözünün 10 311 dəfə qeydə alınması onun müəllif korpusunda yüksək işlənmə intensivliyini göstərir. Lakin bu rəqəm bütün işlənmələrin milli dil konseptinə aid olduğunu və ya dilin mütləq konseptual üstünlüyünü sübut etmir. Bu baxımdan kontekstual təhlil əsas rol oynayır.

"Bu dil tükənməyən xəzinəm, varım,

Ulu soylarımın müqəddəs izi..." (Rüstəmxanlı, 2025, II c., s. 121) – misralarında *dil* "xəzinə" və "tarixi iz" obrazları ilə əlaqələndirilir. "Tükənməyən xəzinə" dilin dəyərini, "ulu soyların müqəddəs izi" isə onun nəsillərarası varisliklə münasibətini ön plana çıxarır. Bu kontekstdə *dil* sadəcə ünsiyyət vasitəsi deyil, tarixi və mədəni təcrübənin qorunması ilə əlaqəli dəyər kimi təqdim olunur.

"Torpağım ikiyə bölünən zaman

Bu dil bölünməyən torpağım oldu" (Rüstəmxanlı, 2025, II c., s. 235) – misralarında torpağın bölünməsi ilə dilin bölünməyən məkan kimi təqdim olunması arasında qarşılaşdırma yaranır. Burada dil ərazi parçalanmasının əksinə olaraq mənəvi bütövlüyü ifadə edir. *Dil* konseptinin milli-mədəni məzmunu məhz bu qarşılaşdırma vasitəsilə güclənir.

"Ana dili" mətnində verilən "Vətən də, xalq da, ocaq da, milli varlıq da, insanın kimliyi də Ana dilindən başlanır" (Rüstəmxanlı, 2025, XIV c., s. 158) ifadəsi dilin başqa konseptlərlə əlaqəsini birbaşa göstərir. Eyni cümlədə vətən, xalq, ocaq, milli varlıq və insanın kimliyi dil ilə əlaqələndirilir. Buna görə bu nümunə konseptlərarası semantik təşkilin əsas sübutlarından biridir.

Bununla belə, konkordansda *dil* sözünün frazeoloji və başqa məcazi işlənmələri də mövcuddur. "Dil tapmaq", "dil açmaq" və "dil uzatmaq" kimi

ifadələr milli dil konseptinin təhlilinə avtomatik daxil edilməməlidir. Onların daxil edilməsi yalnız kontekst milli dil və mədəni mənsubiyyətlə əlaqəni əsaslandırdığı halda mümkündür.

Beləliklə, *dil* konseptinin seçilmiş nümunələrdəki əsas semantik nüvəsi "milli kimliyin ifadəsi və mənəvi varislik" ilə bağlıdır. Onun xalq və vətən konseptləri ilə əlaqəsi açıq mətn nümunələri ilə təsdiqlənir; torpaqla münasibəti isə maddi ərazi ilə mənəvi bütövlük arasındakı qarşılaşdırmada meydana çıxır.

"Xalq": kollektiv kimlik və mədəni varislik. Xalq sözü müxtəlif kontekstlərdə ümumi insan topluluğunu, milli kollektivi və ya "xalq şairi", "xalq yazıçısı" kimi birləşmələrdə ictimai statusu ifadə edə bilər. Buna görə konkordansdakı bütün uyğunluqları eyni milli-mədəni funksiya altında birləşdirmək olmaz. Burada kollektiv kimlik, tarixi köklər və mədəni varisliklə əlaqələnən nümunələr əsas götürülür.

Xalq mədəniyyətinin xüsusiyyəti yeni doğulmuş uşağın "neçə yüz ilin mənəvi köklərinə calaq edilməsi" ilə izah olunur (Rüstəmxanlı, 2025, V c., s. 7). "Mənəvi köklərə calaq edilmək" obrazı fərdin mədəni təcrübəsinin və əvvəlki nəsillərin təcrübəsi ilə əlaqələndirilməsini ifadə edir. Burada xalq mədəniyyəti kollektiv təcrübənin nəsildən-nəslə ötürülməsi üçün mühit kimi təqdim olunur.

"Qaya yazıları xalq birliyinin kökünü o uzaq minilliklərə aparıb çıxarır" fikri (Rüstəmxanlı, 2025, V c., s. 154) *xalq* konseptini qədim tarix və mədəni irslə əlaqələndirir. Qaya yazıları kollektiv birliyin tarixi dərinliyini göstərən maddi izlər kimi şərh olunur. Beləliklə, xalqın kimliyi yalnız müasir ictimai münasibətlərlə deyil, keçmişdən gələn mədəni dəlillərlə də əlaqələndirilir.

Xalqın ana dili ilə əlaqələndirilməsi bu konseptin başqa bir istiqamətini göstərir: xalq ortaq dil və mədəni mənsubiyyət çərçivəsində təqdim olunur (Rüstəmxanlı, 2025, VI c., s. 158). Bununla belə, *xalq* və *dil* eyni məna vahidləri deyil. *Xalq* kollektiv subyekti və mənsubiyyəti, *dil* isə həmin kollektivin kimliyini ifadə və ötürə bilən vasitələrdən birini təmsil edir.

Bu nümunələr əsasında *xalq* konseptinin əsas semantik nüvəsi "kollektiv kimlik və mədəni varislik" kimi müəyyənləşdirilə bilər. Onun yaddaşla əlaqəsi kollektiv təcrübənin qorunması, dil ilə əlaqəsi isə mənsubiyyətin ifadəsi səviyyəsində yaranır.

"Yaddaş": tarixi təcrübənin qorunması.

Yaddaş sözü həm fərdi xatirəni, həm də tarixi və milli təcrübənin qorunmasını ifadə edə bilər. Buna görə onun milli-mədəni konsept kimi təhlilində şəxsi xatirə ilə kollektiv yaddaş fərqləndirilməlidir. Konkordansda milli tarix, mədəni irs və nəsillərarası varisliklə əlaqəli nümunələr bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

"Dünəni unuduruq,

Belə də yaddaş olar?!" (Rüstəmxanlı, 2025, III c., s. 149) – misralarında *yaddaş* keçmişi qorumaq və unutmamaq tələbi ilə əlaqələndirilir. Sual formasında

qurulmuş ifadə unutmanı yaddaşın funksiyası ilə ziddiyyətə gətirir və keçmişə münasibət məsələsini ön plana çıxarır.

Minillikləri aşan yaddaş abidələrinin informasiya vasitələrinin təsiri ilə silinib yox edilməsi haqqında fikir yaddaş problemini fərdi şüurdan mədəni irs səviyyəsinə keçirir (Rüstəmxanlı, 2025, V c., s. 204). Burada yaddaş yalnız şəxsi xatırlama deyil, tarixi abidələrin və kollektiv təcrübənin davamlılığı ilə əlaqələnir.

Tarixi hadisələrin unudulması və "milli yaddaşsız" nəslin yetişməsi barədə mülahizə yaddaşın milli özünüdərk üçün əhəmiyyətini vurğulayır (Rüstəmxanlı, 2025, VI c., s. 246). "Yaddaş vakuumu" ifadəsi isə yazı sistemlərinin dəyişməsi ilə əvvəlki ədəbiyyat arasında yaranan əlaqə qırılmasını obrazlaşdırır (Rüstəmxanlı, 2025, XI c., s. 421). "Vakuum" metaforası yaddaşın boşluq və kəsilmə kimi konseptuallaşdırılmasına xidmət edir.

"...rejimlərin qərəzli qadağaları ilə üzləşsələr də, adları yasaq olunsa da, gec-tez xalqın yaddaşında yerləri bərpa olunur, çünki milli yaddaş qondarma tarix kitablarından da, rejimlərin köpüklü salnamələrindən də daha etibarlı və uzunömürlüdür" (Rüstəmxanlı, 2025, XIII c., s. 210). Bu fikirdə milli yaddaş qondarma tarix kitabları və siyasi rejimlərin salnamələri ilə qarşılaşdırılır. Belə qarşılaşdırma müəllifin mətnində kollektiv yaddaşın tarixi təcrübəni qoruyan, rəsmi ideoloji təsirlərdən asılı olmayan alternativ daşıyıcı kimi təqdim olunduğunu göstərir. Lakin bu mövqeni bütün tarixi bilik formaları haqqında ümumi qanun kimi qəbul etmək olmaz, təhlil konkret mətnin ifadə etdiyi müəllif mövqeyi çərçivəsində aparılmalıdır.

Beləliklə, *yaddaş* konseptinin əsas semantik nüvəsi "keçmiş təcrübənin qorunması və aktuallaşması"dır. Milli yaddaş, mədəni irs və ədəbi varislik bu nüvənin müxtəlif kontekstlərdə reallaşan istiqamətləridir. Onun xalqla əlaqəsi kollektiv təcrübəyə, yurdla əlaqəsi isə məkanın xatirə və tarix vasitəsilə mənalanmasına söykənir.

Milli-mədəni konseptlərin qarşılıqlı semantik təşkili. Altı konseptin ayrı-ayrı təhlili göstərir ki, onların mətnlərdə yaratdığı əlaqələr təsadüfi yanaşı işlənmə ilə məhdudlaşmır. Bəzi kontekstlərdə müəllif konseptlər arasındakı münasibəti birbaşa ifadə edir; başqa hallarda isə əlaqə metafora, paralel quruluş və ya tarixi-mədəni assosiasiya vasitəsilə yaranır. Buna görə konseptlərarası semantik təşkil həm açıq şəkildə ifadə olunan əlaqələri, həm də kontekstual şərh tələb edən münasibətləri əhatə edir.

Dil və xalq: milli kimliyin ifadəsi və kollektiv varislik. "Vətən də, xalq da, ocaq da, milli varlıq da, insanın kimliyi də Ana dilindən başlanır" ifadəsi dil, xalq, vətən və şəxsiyyət arasında birbaşa əlaqə yaradır. Burada *dil* milli-mədəni kimliyin başlanğıcı kimi təqdim olunur. Uşağın "neçə yüz ilin mənəvi köklərinə calaq edilməsi" haqqında fikir (Rüstəmxanlı, 2025, V c., s. 7) isə kollektiv mədəni təcrübənin nəsildən-nəslə ötürülməsini göstərir.

Bu iki nümunə birlikdə dil və xalq münasibətinin mədəni varislik müstəvisində şərhinə əsas verir. *Dil* kollektiv təcrübənin ifadə və ötürülmə

vasitələrindən biri, *xalq* isə həmin təcrübənin daşıyıcısı olan kollektiv subyekt kimi nəzərdən keçirilə bilər. Beləliklə, bu əlaqədə dilin funksiyası milli kimliyin ifadəsi, xalqın funksiyası isə kollektiv mənsubiyyət və tarixi davamlılıqla bağlıdır.

Vətən, torpaq və dil: maddi-mənəvi bütövlük. "Vətən sözünün maddi ayağı torpaq, mənəvi ayağı dildir" ifadəsi üç konsepti birbaşa əlaqələndirir. Burada torpaq vətənin maddi əsasını, dil isə mənəvi əsasını təmsil edir. Bu münasibət vətən anlayışının yalnız coğrafi əraziyə və ya yalnız emosional mənsubiyyətə endirilməməsini göstərir.

"Torpağım ikiyə bölünən zaman
Bu dil bölünməyən torpağım oldu" (Rüstəmxanlı, 2025, II c., s. 235) – misraları eyni semantik münasibəti poetik qarşılaşdırma vasitəsilə ifadə edir. Fiziki ərazinin bölünməsi ilə dilin bölünməyən məkan kimi təqdim olunması arasında məna gərginliyi yaranır. Beləliklə, torpaq və dil *vətən* konseptinin maddi və mənəvi tərəfləri kimi əlaqələndirilir, *vətən* isə bu tərəflərin bütövlüyünü birləşdirən daha geniş anlayış kimi çıxış edir.

Vətən və yurd: milli mənsubiyyətlə yaşanmış məkanın əlaqəsi. Vətən və yurd eyni semantik sahəyə daxil olsa da, seçilmiş kontekstlərdə müxtəlif məna vurğuları daşıyır. Vətənlə bağlı nümunələrdə vətəndaşlıq, milli bütövlük və güvən, yurdla bağlı nümunələrdə isə doğma məkan və yaşanmış təcrübə daha qabarıq görünür.

"Burda Vətənlə şəxsiyyət, yurdla yaddaş üz-üzə, ürək-ürəyədir" ifadəsi (Rüstəmxanlı, 2025, XII c., s. 138) bu fərqləndirməni birbaşa göstərir. Müəllif "vətən-şəxsiyyət" və "yurd-yaddaş" paralelliyini yaradır. Bu paralellik həmin kontekstdə vətənlə şəxsiyyət, yurdla isə xatirə və keçmiş təcrübə arasında əlaqənin aktuallaşdığını göstərir. Lakin bundan vətən və yurd sözlərinin bütün işlənmələrdə eyni qaydada fərqləndiyi nəticəsi çıxarılmamalıdır.

Yurd və yaddaş: məkanın xatirə vasitəsilə mənalanması. "Bu yurd mənə tanış gəlir" mətnində (Rüstəmxanlı, 2025, II c., s. 273-274) doğma məkan gündəlik həyatın konkret əlamətləri ilə tanınır. "Yurdla yaddaş" əlaqəsinin açıq ifadə olunduğu nümunə isə məkanın keçmiş təcrübə ilə münasibətini daha birbaşa göstərir.

Bu əlaqədə yurd yalnız coğrafi yer deyil, insanın təcrübəsində iz qoymuş məkan kimi mənalanır. Yaddaş həmin məkanı əvəz etmir; onun emosional və tarixi əhəmiyyətinin qorunmasına xidmət edir. Beləliklə, *yurd* və *yaddaş* münasibəti məkanın şəxsi və kollektiv təcrübə vasitəsilə mənalandırılması ilə izah oluna bilər.

Xalq və yaddaş: kollektiv təcrübənin davamlılığı. Xalq konsepti kollektiv subyekti və mənsubiyyəti, yaddaş isə keçmiş təcrübənin qorunması və aktuallaşmasını ifadə edir. Xalq mədəniyyətinin "neçə yüz ilin mənəvi kökləri" ilə əlaqələndirilməsi kollektiv təcrübənin nəsillərarası ötürülməsini, milli yaddaş haqqında nümunələr isə həmin təcrübənin qorunması və itirilməsi problemini ön plana çıxarır.


Bu münasibətdə *yaddaş* xalqın keçmişi ilə əlaqəsini təmin edən məna mexanizmlərindən biri kimi şərh oluna bilər. Bununla belə, xalq və yaddaş eyni

anlayış deyil: *xalq* kollektiv subyekt, *yaddaş* isə keçmiş təcrübənin saxlanması və aktuallaşması ilə bağlı proses və məna sahəsidir.

Konseptlərarası modelin ümumiləşdirilməsi. Aparılmış təhlil əsasında altı konseptin münasibətlərini aşağıdakı şəkildə ümumiləşdirmək mümkündür:

Konsept	***Əsas semantik nüvə***	***Mətnlərdə reallaşan əsas əlaqəli konsept və semantik sahələr***
dil	milli kimliyin ifadəsi və mənəvi varislik	xalq, vətən, torpaq
xalq	kollektiv kimlik və mədəni varislik	dil, yaddaş
yaddaş	keçmiş təcrübənin qorunması və aktuallaşması	xalq, yurd, tarix
torpaq	maddi məkan və tarixi izlər	vətən, dil, yaddaş
yurd	doğma və yaşanmış məkan	yaddaş, torpaq, vətən
vətən	milli-mənəvi bütövlük və mənsubiyyət	torpaq, dil, xalq, yurd

Şəkil 1. Milli-mədəni konseptlərin qarşılıqlı semantik modeli.



Qeyd: ***Oxlar konseptlər arasında kontekstual semantik bağlılığı göstərir.***

Təqdim olunan model seçilmiş konkordans nümunələrində müəyyənləşdirilmiş altı konseptin əsas semantik nüvələrini və onların qarşılıqlı əlaqə istiqamətlərini ümumiləşdirir. Modeldəki münasibətlər eyni xarakter daşımır: bir qismi müəllifin mətnlərində birbaşa ifadə olunur, digər qismi isə müxtəlif kontekstlərin leksik-semantik və obrazlı təhlili əsasında müəyyənləşdirilir. Məsələn, "Vətən sözünün maddi ayağı torpaq, mənəvi ayağı dildir" ifadəsi vətən, torpaq və dil konseptləri arasındakı əlaqəni birbaşa nümayiş etdirir. "Torpağa baxıram üzümə gülür, nəyi bilmirəmsə, bu torpaq bilir" misralarında isə torpaqla yaddaş arasındakı münasibət poetik obrazın interpretasiyası əsasında üzə çıxır. Buna görə model konseptlər arasında dəyişməz və birmənalı əlaqələr sistemi deyil, seçilmiş mətn materialında müşahidə olunan semantik münasibətlərin ümumiləşdirilmiş təsviri kimi qəbul edilməlidir.

Beləliklə, Sabir Rüstəmxanlının idiolektində milli-mədəni məna sistemi ayrı-ayrı konseptlərin təcrid olunmuş məzmunu əsasında deyil, onların qarşılıqlı semantik əlaqələri vasitəsilə formalaşır. Dil və xalq münasibəti milli kimliyin ifadəsi və mədəni varislik, torpaq və vətən münasibəti milli mənsubiyyətin maddi-mənəvi əsasları, yurd və yaddaş münasibəti isə doğma məkanın tarixi və şəxsi təcrübə vasitəsilə mənalandırılması ilə səciyyələnir. Xalq və yaddaş əlaqəsi kollektiv tarixi təcrübənin qorunması və aktuallaşmasını, dilin vətənlə münasibəti isə milli bütövlüyün mənəvi əsasını üzə çıxarır. Bu münasibətlər şəbəkəsi müəllifin milli-mədəni məna sisteminin əsas semantik təşkilini müəyyənləşdirir.

Sabir Rüstəmxanlının idiolektində *vətən, yurd, torpaq, dil, xalq* və *yaddaş* konseptlərinin təhlili milli-mədəni məzmunun ayrı-ayrı sözlərin leksik mənaları ilə məhdudlaşmadığını göstərir. Bu konseptlər müəllifin mətnlərində milli kimlik, tarixi təcrübə, doğma məkan, mənəvi varislik və kollektiv yaddaş arasında əlaqələr yaradır.

Tezlik lüğətinin göstəriciləri seçilmiş sözlərin müəllif korpusunda işlənmə intensivliyini təsvir edir. Lakin tezlik göstəriciləri konseptlərin estetik və ya ideoloji əhəmiyyətini birbaşa müəyyənləşdirmir. Bu baxımdan konkordansın kontekstual təhlili xüsusi əhəmiyyət daşıyır: o, sözlərin hansı mənalarda işlənməsini, hansı obrazlarla əlaqələnməsini və başqa konseptlərlə hansı münasibətlər yaratmasını müəyyənləşdirməyə imkan verir.

Təhlil göstərir ki, *dil* milli kimlik və mədəni varisliyin ifadəsi kimi, *xalq* kollektiv mənsubiyyət və tarixi təcrübənin daşıyıcısı kimi, *yaddaş* isə keçmişin qorunması və aktuallaşması ilə bağlı konsept kimi meydana çıxır. *Torpaq* maddi məkanla yanaşı, tarixi izlərin qorunduğu və poetik obrazlaşmaya məruz qalan məkan kimi mənalandırıla bilir. *Vətən* milli-mənəvi bütövlük və vətəndaşlıqla, *yurd* isə bir sıra kontekstlərdə doğmalıq, yaşanmış məkan və xatirə ilə daha sıx əlaqələnir.

Xüsusilə "Vətən sözünün maddi ayağı torpaq, mənəvi ayağı dildir" və "Vətən də, xalq da, ocaq da, milli varlıq da, insanın kimliyi də ana dilindən başlanır" ifadələri konseptlərarası münasibətlərin müəllif mətnində açıq şəkildə

qurulduğunu göstərir. “Burda Vətənlə şəxsiyyət, yurdla yaddaş üz-üzə, ürək-ürəyədir” isə müəllifin həmin kontekstdə *vətən-şəxsiyyət* və *yurd-yaddaş* münasibətlərini paralel şəkildə təqdim etdiyini göstərir.

Beləliklə, Sabir Rüstəmxanlının idiolektində milli-mədəni məna sistemi bir konseptin mütləq dominantlığı ilə deyil, dil, xalq, yaddaş və məkan anlayışlarının qarşılıqlı əlaqəsi ilə səciyyələnir. Bu qənaət seçilmiş konkordans nümunələrinin keyfiyyət təhlilinə əsaslanır. Konseptlərin janrlar üzrə işlənmə xüsusiyyətlərini və semantik funksiyalarının kəmiyyət göstəricilərini müəyyənləşdirmək üçün gələcək tədqiqatlarda daha geniş mətn materialı əsasında əlavə kəmiyyət təhlilinin aparılması məqsədəuyğun olardı.

ƏDƏBİYYAT

1. Cienki, A. (2007). Frames, Idealized Cognitive Models, and Domains. // Geeraerts, D., Cuyckens, H. (eds.). The Oxford Handbook of Cognitive Linguistics. Oxford: Oxford University Press, pp. 170–187. https://doi.org/10.1093/oxfordhb/9780199738632.013.0007

2. Əfəndiyeva, T. (1980). Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı: Elm.

3. Əfəndiyeva, T. (2001). Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı: Elm.

4. Grady, J. E. (2007). Metaphor. // Geeraerts, D., Cuyckens, H. (eds.). The Oxford Handbook of Cognitive Linguistics. Oxford: Oxford University Press, pp. 188–213.

5. Panther, K.-U., Thornburg, L. L. (2007). Metonymy. // Geeraerts, D., Cuyckens, H. (eds.). The Oxford Handbook of Cognitive Linguistics. Oxford: Oxford University Press, pp. 236–263.

6. Polzenhagen, F., Wolf, H.-G., Latić, D., Peters, A. (2024). World Englishes and Cultural Linguistics. World Englishes, 43(3), 360–378. https://doi.org/10.1111/weng.12655

7. Rüstəmxanlı, S. (2025) Seçilmiş Əsərləri. 15 cilddə. Konkordans. // https://korpus.azerbaycandili.az/concordance

8. Tahirov, İ. (2026). Sabir Rüstəmxanlı dilinin tezlik lüğəti. Bakı: Elm və təhsil.

9. Баранов, А.Н., Добровольский, Д.О. (2022). Понятие корпусной модели идиостиля. // Труды Института русского языка им. В. В. Виноградова РАН, № 1 (31), с. 20–27. DOI: 10.31912/pvrli-2022.1.2

10.Виноградов, В.А. (2008). Идиолект. // Большая российская энциклопедия, т. 10, Москва, с. 702.

SEMANTIC ORGANIZATION OF NATIONAL-CULTURAL CONCEPTS IN SABIR RUSTAMKHANLI'S IDIOLECT

ABSTRACT

The article examines the concepts of homeland, native land, land, language, people, and memory, which play a significant role in shaping national-cultural meaning in Sabir Rustamkhanli's idiolect, drawing on corpus linguistics and lexical-semantic approaches. The aim of the study is to identify the principal semantic features, contextual functions, and interrelationships of these concepts in the author's texts. The research material consists of a concordance compiled from the writer's fifteen-volume collected works and data from a frequency dictionary of the author's language. Frequency data are used to determine the incidence of selected lexical items, while concordance examples serve to analyze their semantic nuances, figurative uses, and relationships with other concepts. The analysis does not cover all occurrences of the words; rather, it focuses on examples in which national-cultural meanings emerge in context. It also distinguishes between semantic relations explicitly expressed in the texts and those identified through interpretation. The findings reveal the semantic cores associated with the concepts under study: homeland with national-spiritual integrity and belonging; native land with a familiar and lived-in space; land with material foundations and historical traces; language with national identity and spiritual continuity; people with collective identity and cultural continuity; and memory with the preservation and actualization of past experience. Interconceptual relations are grouped into four dimensions – national identity and continuity, space and belonging, historical experience and memory, and material and spiritual foundations – and presented in the form of a semantic model. The study thus demonstrates that the author's system of national-cultural meanings is shaped not by the isolated meanings of individual words, but by their contextual and interrelated semantic connections. The findings are based on a qualitative analysis of selected concordance examples.

Keywords: Sabir Rustamkhanli, idiolect, national-cultural concept, corpus linguistics, concordance, semantic relations.

СЕМАНТИЧЕСКАЯ ОРГАНИЗАЦИЯ НАЦИОНАЛЬНО-КУЛЬТУРНЫХ КОНЦЕПТОВ В ИДИОЛЕКТЕ САБИРА РУСТАМХАНЛЫ

АННОТАЦИЯ

В статье на основе подходов корпусной лингвистики и лексико-семантического анализа исследуются концепты Родины, родного края, земли, языка, народа и памяти, играющие важную роль в формировании национально-культурного содержания идиолекта Сабира Рустамханлы. Цель исследования заключается в выявлении основных семантических особенностей, контекстуальных функций и взаимосвязей данных концептов в авторских текстах. Материалом исследования послужили конкорданс, составленный на

основе 15-томного собрания сочинений писателя, и данные частотного словаря языка автора. Частотные данные используются для определения интенсивности употребления отобранных лексических единиц, а примеры из конкорданса – для анализа их смысловых оттенков, образных употреблений и связей с другими концептами. В исследовании рассматриваются не все случаи употребления соответствующих слов, а только те контексты, в которых выявляется их национально-культурное содержание. При этом разграничиваются семантические отношения, непосредственно выраженные в текстах, и связи, устанавливаемые на основе интерпретации. В результате исследования выявлены семантические ядра рассматриваемых концептов: Родина соотносится с национально-духовной целостностью и принадлежностью, родной край – с близким и освоенным пространством, земля – с материальной основой и историческим следом, язык – с национальной идентичностью и духовной преемственностью, народ – с коллективной идентичностью и культурной преемственностью, а память – с сохранением и актуализацией прошлого опыта. Межконцептуальные отношения обобщаются по четырём направлениям: национальная идентичность и преемственность, пространство и принадлежность, исторический опыт и память, материальные и духовные основы. Эти отношения представлены в виде семантической модели. В результате показано, что система национально-культурных смыслов в идиолекте автора формируется не изолированными значениями отдельных слов, а их контекстуальными и взаимосвязанными семантическими отношениями. Результаты исследования основаны на качественном анализе отобранных примеров из конкорданса.

Ключевые слова: *Сабир Рустамханлы, идиолект, национально-культурный концепт, корпусная лингвистика, конкорданс, семантические отношения.*